# Qəbələ Rayonu üzrə Təhsil Sektorunun 2024-cü il üçün yekunları

Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı onu təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin ən başlıca strateji istiqamətlərindən biridir.

Dövlət başçısının müntəzəm dəstəyi və qayğısının nəticəsi olaraq, yeni məktəblərin inşası, azkomplektli məktəblər üçün modul tipli binaların quraşdırılması, ümumitəhsil məktəblərinin əsaslı təmiri və maddi-texniki və təlim bazasının yaxşılaşdırılması sahəsində aparılan işlər, təlim-tərbiyə şəraitinin, təhsilin keyfiyyətinin yaxşılaşmasına, pedaqoji kollektivlərdə iş əzminin yüksəlməsinə, təhsilin yeni məzmun - forma almasına müstəsna dərəcədə əhəmiyyətli təsir göstərmişdir.

Belə ki, Şəki - Zaqatala RTİ-nin Qəbələ Rayonu üzə Təhsil Sektorunun tabeçiliyində olan ümumtəhsil məktəblərinin 2024-cü ilin I yarım ilinin nəticələri aşağıdakı kimi olmuşdur.

Yarım ilin əvvəlində şagirdlərin sayı 16563, sonunda şagirdlərin sayı 16619, məktəbə gələn şagirdlərin sayı 382, məktəbdən gedən şagirdlərin sayı 438, I sinfə qəbul olunan şagirdlərin sayı 1485.

Müvəfəqiyyət göstəricisi 99,78 faiz, keyfiyyət göstəricisi 65 faiz, məktəbə hazırlıq qruplarına cəlb olunan şagirdlərin sayı 1264 nəfər olmuşdur.

1505 şagirdə ümumi, 1230 şagirdə tam orta təhsil haqqında, 102 şagirdə tam orta təhsil haqqında fərqlənmə attestatı verilmişdir.

7 aprel 2024-cü il tarixində ümumi (9 illik) orta təhsil bazasında ümumtəhsil müəssisələrində təhsilalanların yekun qiymətləndirilməsi (buraxılış) imtahanları 6 imtahan mərkəzində təşkil olunmuşdur. Ümumi orta təhsil səviyyəsini bitirən 1563 şagirddən 1494 nəfəri imtahanda iştirak etmişdir. İmtahanda iştirak edən şagirdlər 3 fənn üzrə (ana dili, riyaziyyat, xarici dil) imtahan vermişlər. İmtahanda iştirak edən şagirdlərin ümumi göstəriciləri qənaətbəxş olmuşdur.

Tam orta təhsil səviyyəsi üzrə məktəbi bitirən 1222 nəfər şagirddən 1206 nəfəri imtahanlarda iştirak etmişlər.Onlar ana dili, riyaziyyat, xarici dil fənləri üzrə imtahan vermişlər. XI siniflər üzrə buraxılış imtahanlarının nəticələrinə görə respublika üzrə maksimum (300 bal) nəticə göstərən 14 nəfər məzundan 6 nəfəri Şəki - Zaqatala RTİ-nin tabeçiliyində olan təhsil müəssisələrinin şagirdləridir. Bizim üçün xüsusilə sevindiricidir ki bunlardan 3 nəfəri Şəki - Zaqatala RTİ-nin Qəbələ rayonu üzrə təhsil sektorunun tabeçiliyində olan təhsil müəssisələrinin şagirdləridir.

Elşən Yusibov Həmzəli, Səidə Rəhimova Nohurqışlaq kənd məktəblərinin, Lalə Xancanova Qəbələ şəhər 4 nömrəli tam orta ümumtəhsil məktəbin XI sinif şagirdləridirlər.

Adları qeyd olunan şagirdlərin yekun nəticələri (ali məktəblərə qəbul imtahanı balı ilə birlikdə) uyğun olaraq 682, 681, 672 olmuşdur.

2024-cü ilin I yarım ilində keçirilmiş respublika fənn olimpiadasının final mərhələsində iştirak edən 13 şagirddən 3 nəfəri yüksək nəticə göstərərək olimpiada qalibi (bir gümüş, iki bürünc) adını qazanmışdır.

Yarım il ərzində II-X sinif şagirdlərinin iştirakı ilə Kenquru Beynəlxalq riyaziyyat müsabiqəsinin, VI, VII sinif şagirdlərinin iştirakı ilə məktəblilərarası fənn müsabiqəsi və V sinif şagirdlərinin iştirakı ilə Lütvizadə adına riyaziyyat -məntiq olimpiadalarının final turu keçirilmiş və şagirdlərimiz həmin müsabiqələrdə yüksək fəallıq nümayiş etdirmişlər. Müsabiqənin keçirilməsində əsas məqsəd riyaziyyat fənninə olan marağın artırılması və istedadlı şagirdlərin erkən yaşda müəyyən edilməsidir.

16 - 19 aprel tarixlərində BANM-də təşkil olunan kimya nominasiyası üzrə SuVar elmi layihəsi ilə Sabahın Alimləri XIII Respublika müsabiqəsində finalda iştirak edən Qəbələ rayon Tüntül kənd tam orta ümumtəhsil məktəbinin X sinif şagirdləri Gülsu Mustafayeva və Rüstəm Fərziyev yüksək fəallıq nümayiş etdirərək II yer (gümüş medal) qazanmışlar.

2023 - 24-cü tədris İlində ali və orta ixtisas məktəblərinə sənəd verən 773 məzundan 53 nəfəri 600-dən yuxarı bal toplamışdır.

Ali məktəblərə qəbulda və bütün tədris ilində yüksək nəticə göstərən məktəblərdən Qəbələ şəhər 4, 5 saylı, Vəndam qəsəbə 1 saylı, Həmzəli, Nohurqışlaq, kənd tam orta ümumtəhsil məktəblərini, zəif nəticə göstərən məktəblərdən isə Nic qəsəbə 1, 2, 5 saylı, Quşlar, Ziring kənd tam orta ümumtəhsil məktəblərini misal göstərmək olar.

Məktəblərin ixtisaslı pedaqoji kadrlarla tam təmin edilməsi məqsədilə 2024 - 2025-ci tədris ili üçün Şəki Zaqatala Regional İdarəsinə 15 ixtisas üzrə 137 müəllimə ehtiyac olduğu barədə müraciət edilmişdir. Çıxarılmış vakant iş yerləri müsabiqədən uğurla keçən müəllimlər tərəfindən tutulmuş və onlar hal-hazırda məktəblərimizdə tədris prosesində fəal iştirak edirlər.

Qəbələ rayonu üzrə təhsil sektorunun tədbirlər planına uyğun olaraq bütün tarixi günlər qarşıya qoyulmuş tələblər çərçivəsində qeyd edilmiş, tədris ili ərzində şəhid ailələri, qazilərlə, müharibə iştirakçıları ilə görüşlər keçirilmişdir. Rayonun bütün təhsil müəssisələrində, əlamətdar və tarixi günlərlə əlaqədar tədbirlər keçirilmişdir. Qəbələ rayon ümumtəhsil müəssisələrində Zəfər Gününə həsr olunmuş mühazirələr, "Dəyirmi masa"lar, "Açıq dərs"lər, intelllektual yarışlar, ədəbi-bədii kompozisiyalar, rəsm sərgiləri təşkil olunmuşdur. Keçirilən bütün tədbirlərdə fərqlənən məktəblilər və müəllimlər təhsil sektorunun fəxri fərmanı və qiymətli hədiyyələri ilə mükafatlandırılmışlar.

Ulu öndər Heydər Əliyevin 101 illiyi münasibəti ilə bütün ümumitəhsil məktəblərində "Ulu öndər - sənin adınla", "Sən elə bir zirvəsən", "Mən fəxr edirəm ki, azərbaycanlıyam" mövzularında silsilə tədbirlər; ədəbi-bədii kompozisiyalar, seminarlar, konfranslar, idman yarışları, ekskursiyalar, gəzintilər təşkil edilmişdir.

Şagirdlərimiz "Şahin" hərbi idman oyunlarında, Azərbaycan Respublikası Fövqəladə Hallar və Elm və Təhsil Nazirliklərinin birgə keçirdikləri "Gənc xilasedicilər və yanğınsöndürənlər" yarışında, "Sərhəd" hərbi idman oyunlarında yüksək fəallıq göstərmiş, fərqləndirici yerlər tutmuşlar.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda təhsil müəssisələrinin rasionallaşdırılması (yəni eyni ərazidə şagird sayı az olan, gələcək üçün heç perspektivi olmayan məktəblərin birləşdirilməsi) başlanılmışdır. Məqsəd mövcud məktəb şəbəkələrinin optimallaşdırılması, mövcud resursların və ayrılan xərclərin səmərəli bölüşdürülməsi və kefiyyətli təhsil mühütinin formalaşmasıdır. Bu səbəblə rayonun az sinif komplektli, şagird sayı çox az olan Ovculu kənd ibtidai və Qaş kənd ümumi orta ümumtəhsil məktəblərinin fəaliyyəti 2024-cü il 15 sentyabr tarixindən dayandırılmışdır. Hər iki məktəbin şagirdləri uyğun olaraq Mamaylı (məsafə 2 km) və Bayramkoxalı (məsafə 4 km) kənd tam orta ümumtəhsil məktəblərində təhsillərini davam etdirirlər.

22 dekabr 2024-cü il tarixində Respublika fənn olimpidalarının rayon turu keçirilmişdir. Olimpidada iştirak edən 796 nəfər (səkkiz fənn üzrə) VIII-XI sinif şagirdlərindən 221 nəfəri fevral ayında keçirilməsi nəzərdə tutulan respublika fənn olimpidalarının zona turuna vəsiqə qazanmışlar.

Ümumtəhsil və məktəbəqədər təhsil müəssisələrinin fasiləsiz istilik sistemi və yanacaqla təmin olunması ilə əlaqədar monitorinqlər aparılıb, nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün bir sıra işlər görülmüş, təhsil müəssisələrimizin yanacaq təminatı ilə bağlı bütün məsələləri vaxtında həll olunmuşdur.

Məktəblərin yeni dərs ilinə hazırlanmasında və tədrisin keyfiyyətinin yüksəldilməsində şagirdlərin dərsliklərlə təmin olunması əsas vəzifələrdən biridir. Bu məqsədlə Elm və Təhsil Nazirliyi tərəfindən məktəblərimizə 61573 adda (4644 nüsxə bədii ədəbiyyat olmaqla) dərslik və müəllimlər üçün metodik vəsait verilmişdir.

"Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində 9 aprel 2024-cü il tarixində rayonun Bum qəsəbəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən dövrün ən müasir tələblərinə cavab verən 624 yerlik məktəb binasının açılış mərasimi keçirilmişdir.

Şəki - Zaqatala Regional İdarəsinin Qəbələ rayonu üzrə təhsil şektoru, eləcə də bütün təhsil müəssiələri növbəti ildə təhsilin keyfiyyətinin yüksəldilməsi, təlim resurslarından, müasir təlim metodlarından və texnologiyalarından daha səmərəli istifadə etmək istiqamətində işləri bu gündən sonra da davam etdirəcək, əvvəlki illərdə qazanılmış nailiyyətlərin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi yolunda əzmlə çalışacaqdır.

**Arifə BAYRAMOVA,**
**Şəki - Zaqatala Regional Təhsil İdarəsinin Qəbələ Rayonu üzrə Təhsil Sektorunun müdiri.**

# Ümumtəhsil müəssisələrində 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunmuş silsilə tədbirlər

Rayonumuzun bütün ümumtəhsil müəssisələrində 20 Yanvar Ümumxalq Hüzn gününə həsr olunmuş dəyirmi masa, seminar və mühazirələr, rəsm sərgisi, idtirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayan tədbirlərdə 20 Yanvar faciəsinin səbəbləri, Azərbaycan xalqının azadlıq mübarizəsi diqqətə çatdırılaraq, hə-



man yarışları, tarixi günə həsr olunmuş xüsusi dərslər keçirilmiş, şagirdlərin Şəhidlər Xiyabanına ziyarəti təşkil edilmişdir. Tədbirlərdə Qəbələ rayon Təhsil sektorunun əməkdaşları, təhsil müəssisələrinin pedaqoji və şagird kollektivləri iştirak edibləр. Ulu öndər Heydər Əliyevin və faciə qurbanlarının xamin gün xalqımıza qarşı törədilən bu qanlı və qəddar aksiyaya Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdışından sonra siyasi-hüquqi qiymət verildiyi barədə danışılmışdır. Sonda məktəblilərin hazırladıqları ədəbi-bədii kompazisiyalar və səhnəciklər təqdim olunmuşdur.

# Nic qəsəbəsində Milad bayramı qeyd edilib



Rayonumuzun Nic qəsəbəsində pravoslav xristianlarının bayramı olan Milad bayramı münasibətilə tədbir keçirilmişdir. Qəsəbədə fəaliyyət göstərən "Cotari" alban kilsəsində təşkil edilmiş mərasimdə Alban-Udi icmasının üzvləri ilə yanaşı rayon ictimaiyyətinin nümayəndələri də iştirak etmişlər. Mərasimda çıxış edən Azərbaycan Respublikası Alban-Udi Xristianları İcmasının sədri Robert Mobili və icmanın üzvləri Milad bayramının mahiyyətindən, tolerantlıq diyarı olan Azərbaycanda dini ayinlərin icrası üçün yaradılan şəraitdən danışmış, bayram münasibətilə təbriklər səsləndirərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya və Heydər Əliyev Fondunun vitseprezidenti Leyla xanım Əliyevaya Nic qəsəbəsinə göstərdikləri diqqət və qayğıya görə öz minnətdarlıqlarını bildirmişlər.

# Qanunsuz tikinti işlərinin qarşısı alınmışdır



Rayon icra hakimiyyətinin, rayon polis şöbəsinin, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Şimal-Qərb Regional Mərkəzi və digər aidiyyəti qurumların əməkdaşları tərəfindən rayon ərazisində özbaşına tikililərin qarşısının alınması məqsədilə monitorinqlər davam etdirilir. 11 yanvar 2025-ci il tarixdə keçirilən növbəti monitorinq zamanı Qəbələ rayonu Zarağan kəndi ərazisində magistral yol kənarında özbaşına aparılan qeyri-yaşayış obyektinin tikildiyi aşkar edilmiş, söküntü işləri aparılaraq ərazi boşaldılmışdır.